

# Yüksək döyüş hazırlığı, milli qeyrət və Ali Baş Komandana sədaqət

## Ordumuzun zəfərlərini bu dəyərlər təmin edir

***Düşmən panikadadır, düşmən isterikaya qapılıb. Düşmən ölkənin rəhbərliyi tamamilə özünü itirmiş vəziyyətdədir. Müxtəlif ölkələrə, müxtəlif ölkələrin dövlət-hökumət başçılarına müntəzəm olaraq zəng edir, dəfələrlə, gündə bir neçə dəfə yardım istəyir, imdad diləyir, yalvarır. Onların ayağının altına yıxılır. Özünü alçaldır ki, gəlin, bizi xilas edin. Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar. Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız.***

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindən 9 oktyabr 2020-ci il*

**Dövlət başçımızın cəbhədəki vəziyyətlə bağlı son çıxışlarını, müsahibələrini və müraciətlərini oxuyanda gözümüzün qarşısından son otuz ildə yaşadığımız dəhşətli həqiqətlər keçir. Bizə qarşı nə qədər ədalətsizliklər olub, neçə-neçə yalanlar uydurublar, nə qədər təzyiqlərə məruz qalmışıq, nə qədər boş vədlər eşitmişik, nə qədər təxribatları dəf etmişik və nə qədər itkilər vermişik.**

### İnam və nəticə

Mən bu sətirləri qələmə alarkən, dövlət başçımızın son bəyanatlarından xeyli əvvəl, amma bu il səsləndirdiyi bəzi fikirləri yada salmaq istərdim. Məsələn, bu il avqustun 10-da – “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində çıxış edən Prezident demişdi: “Biz 2016-cı ildə torpaqlarımızın bir hissəsini qaytardıq, işğalçıları o torpaqlardan qovduq və o ərazilərə həyat qayıtdı, vətəndaşlar qayıtdı, Azərbaycan qayıtdı. Əminəm ki, Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

İndi isə Azərbaycan Prezidenti öz xalqına Milli Ordumuzun zəfər xəbərlərini çatdırır: “Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi”.

Budur, indi Azərbaycan işğal altında olan torpaqlarını azad edir. Az qala hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün bizim əsgər və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Bu isə o deməkdir ki, Ali Baş Komandanın işləyib hazırladığı əməliyyat planı uğurla icra edilir, əməliyyat planı müasir döyüş prinsiplərinə əsaslanır.

### Paşinyanın məhv edilmiş ordusunun itkiləri

Siyasətə küçədən gəlmiş, adicə ali məktəb diplomunu ala bilməyən, diletant, yalançı, fırıldaqçı, qeyri-səmimi insan olan Nikol Paşinyanın işğalçı ölkənin dövlət başçısı seçilməsi onun üçün fantastik bir uğur idi. Məhz həmin səbəbdən də özünü apara bilmədi və “müvəffəqiyyətdən başı gicəlləndi”. Hətta, 50 milyonluq Azərbaycan xalqını təhqir etməkdən belə çəkinməyən bu işğalçının başı indi müvəffəqiyyətsizlikdən gicəllənir.

Prezident İlham Əliyev xalqa oktyabrın 9-dakı müraciətində dedi: “Deyə bilərəm ki, sentyabrın 27-dən bu günə qədər bütövlükdə Ermənistan Ordusuna çox böyük zərbə vuruldu. Mən, sadəcə olaraq, Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və hərbi qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının siyahısını sizin diqqətinizə çatdırmaq istərdim. Ermənistanın itkiləri ilə əlaqədar məlumat verirəm: 16 komanda məntəqəsi məhv edildi, 196 tank məhv edildi, 38 BM-21, 1 “Uraqan”, 10 özüyeriyən artilleriya qurğusu, - onlardan 8-i “Akasiya”, 2-si “Qvozdika”, - 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 “S-300” kompleksinin buraxıcı qurğusu, 25 OSA zenit-raket kompleksi, 2 KUB zenit-raket kompleksi, 4 “Repelend” radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 TOS-1A odsaçan sursatı, 2 radiolokasiya stansiyası, 1 “Kalçuqa” anteni”.

Kasıb ölkənin tam təmin edilməmiş ordusunun bu qədər itki verməsindən sonra vəziyyətin bu həddə çatmasının yeganə günahkarı olan Nikol Paşinyan sadəcə, intihar etməlidir. Yoxsa ermənilər onu işgəncə ilə öldürəcəklər.

### Deşilmiş çətir altında

Son otuz ildə dünyanın ikili standartdan əl çəkə bilməyən bütün qüvvələri Ermənistana himayədarlıq edirdilər. Hətta bu işğalçı dövlətdə insan hüquqları Afrikanın ən geridə qalmış ölkələrindən də çox pozulanda belə – məsələn, parlamentdə deputatlar güllələbaran ediləndə – heç bir beynəlxalq təşkilat buna reaksiya vermirdi. Azərbaycanın apardığı mükəmməl siyasi diplomatik fəaliyyət nəticəsində artıq Ermənistan həmin “qayğı”lardan məhrum olub. Dövlət başçımız çıxışlarının birində demişdir ki, Ermənistanın başı üstündəki çətir artıq deşilmişdir.

Biz bu gün həmin faktın şahidinə çevrilirik. Prezident ilham Əliyev oktyabrın 9-da xalqa müraciət edərkən işğalçı ölkənin mövcud vəziyyətini dilə gətirdi: “Düşmən panikadadır, düşmən isterikaya qapılıb. Düşmən ölkənin rəhbərliyi tamamilə özünü itirmiş vəziyyətdədir. Müxtəlif ölkələrə, müxtəlif ölkələrin dövlət-hökumət başçılarına müntəzəm olaraq zəng edir, dəfələrlə, gündə bir neçə dəfə yardım istəyir, imdad diləyir, yalvarır. Onların ayağının altına yıxılır. Özünü alçaldır ki, gəlin, bizi xilas edin. Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar. Biz dəfələrlə bunu demişik, öz xoşunuzla çıxın bizim torpaqlarımızdan. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız”.

### Diplomatiyamızın zərbəsi

Günümüzün reallığıdır ki, bu gün Azərbaycan Ordusu işğalçı düşmənə sarsıdıcı zərbələr vurur. Düşmən artıq diz çökmək ərəfəsindədir. Erməni əsgər və zabitləri döyüş meydanını qoyub qaçırlar. İş o yerə çatıb ki, əllərindəki hərbi texnikanı da



meydanda sahibsiz buraxıb gedirlər. Çünki artıq onların erməni ordusu haqqında formalaşdırdıqları mif Azərbaycan əsgərinin ayaqları altında yerlə-yeksan edilmişdir.

Prezident İlham Əliyev xalqımızın möhtəşəm sevincinə səbəb olan bu mənzərə haqqında hələ bu il martın 19-da Azərbaycan xalqına Novruz təbriki söyləyərkən demişdi ki, dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vurulmuşdur: “Hesab edirəm ki, dünyada təhlükəsizlik sahəsində digər bir nömrəli konfrans ( BMT Təhlükəsizlik Şurasından sonra – İ.M.) Münxen Təhlükəsizlik Konfransıdır. Bu konfransda da mən müntəzəm olaraq iştirak edirəm və hər dəfə Azərbaycan həqiqətlərini geniş auditoriyaya çatdırıram. O cümlədən Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, haqlı olduğunu və tarixi aspektləri çatdırıram. Bu dəfə isə daha gözəl fürsət yaranmışdır, Azərbaycan xalqının və dünyanın gözü qarşısında Azərbaycan öz üstünlüyünü bir daha ifadə etmişdir. Tarixi həqiqət, beynəlxalq hüququn normaları bizim tərəfimizdədir. Münxen Təhlükəsizlik Konfransında Ermənistanın və dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vurulmuşdur”.

Oktyabrın 9-dakı müraciətdə isə söhbət siyasi - diplomatik zərbələrdən deyil, bilavasitə Azərbaycan Ordusunun zərbələrindən gedirdi: “Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər – onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Qənimət kimi götürülmüş o hərbi texnikadan indi biz istifadə edirik - 18 tank. Onların tankları indi döyüş meydanında onlara qarşı vuruşur. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz”.

### Oktyabr sevincləri

Yaxşı yadımdadır, 2016-cı ilin aprelində ordumuz uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində Azərbaycan bayrağını Lələtəpə yüksəkliyinə sancmışdı. Bundan sonra Dövlət bayrağımız işğaldan azad edilmiş, insanların təhlükəsiz yaşaması mümkün olmuş Cocuq Mərcanlıda dalğalandı. Həmin günlər Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə Cocuq Mərcanlı qısa müddətdə bərpa olundu və məcburi köçkünlərin öz doğma torpaqlarına “Qayıdış proqramı”nın icrasına başlanıldı.

Dövlət başçımız həmin döyüşlərin ildönümü günlərində demişdi: “Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır... Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir... Biz işğal edilmiş torpaqlara qayıdacağıq. Bu, bizim əsas vəzifəmizdir. Necə ki, keçən il azad edilmiş torpaqlarda bu gün bayrağımız dalğalanır, hələ də işğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır”.

Azərbaycan xalqı oktyabrın 9-da Silahlı Qüvvələrimizin Ali Baş Komandanından dörd il əvvəlki qətiyyətin dörd qat artığını eşitdi: “Biz... xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq. Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

*İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”*